# Alqışlar ona uğur gətirir...

Afaq CƏFƏROVA



Keşməkeşli illərin, əsirlərin, qərinələrin sınağından çıxan xalqımızın ən sevimli çalğı aləti olan saz və saz sənəti aşıqlarımız tərəfindən bu günə qədər qorunub gətirilmişdir. Xalqımızın bu qədim sənətini, mədəni sərvətini qoruyub saxlamaq, onu inkişaf etdirmək, ulu el sənətinə, aşıq sənətinə marağı artırmaq, bu sənəti yaşatmaq, yeni istedadlı gənc ifaçıları üzə çıxarmaq məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi 2006-cı il oktyabr ayında Şəmkirdə Aşıq Şəmkir adına gənc aşıqların III Respublika müsabiqəsi keçirilirdi. Müsabiqədə yer tutan gənc aşıqlardan biri də Şəmkir rayonunun Seybəli kəndinin Məşədi Oruclu tirəsində yaşayan, 1985-ci ildə həmin kənddə anadan olan Elçin Məhəmməd oğlu Məmmədovdur. Onunla çox maraqlı söhbətimiz oldu: - Ulu tanrı yaratdığı insana hər cür qabiliyyət vermişdir. Bu qabiliyyətləri üzə çıxarmaq qalır insanın özünə. Bu qabiliyyətlər sırasında ən nəcibi insanın söz demək qabiliyyəti və hər hansı bir alətdə musiqi çalmaq bacarığıdır, deyə Elçin sözünə davam edərək saz barədə fikirlərini belə açıqladı: - Aşıqlıq sənəti o qədər də asan sənət deyil. Saz çalıb oxumaq özündə insanda bir bacarıq istəyir. Aşıq sənətini sevən, onu yaşadan insanlara mən deyərdim Allah tərəfindən verilmiş bir istedaddır. Min illər yaşı olan dağlarımızı, meşələrimizi, dağların sinəsindən çağlayan buz bulaqlarımızın züm-züməsini, bir-birinə könül verən məşuqların pıçıltısını sirli-sirli dastana çevirib öz gözəl səsləri ilə sazda çalıb oxuyan aşıqlarımızın bir fikri var. Bu sənəti yaşatmaq. O cəhətdən biz gənclərin üzərinə böyük məsuliyyət düşür. Elçin bu sənəti öyrəndiyindən də söz açaraq dedi: - İlk saz müəllimim atam Məhəmməd, məktəbim isə evimiz olub. Uşaqlığım saz havası içərisində keçib. Atamın sazını ondan xəbərsiz düz-səf çalardım. Heç özümün də xəbərim olmadan gördüm sazda sərbəst çalıb-oxuya bilirəm. Hər dəfə sazı əlimə alanda dünyada ən gözəl güllərlə əhatə olunmuş gül bağı nəzərimə gəlir. Sular axır, quşlar oxuyur. İnanın, saz əlimdə elə bil coşub-çağlayır.

Məsələ burasındadır ki, Elçin saz çalıb oxumaqla bərabər muğam sənətinin incəliklərinə də yiyələnmişdir. O, Gəncə şəhərindəki 4 nömrəli musiqi məktəbinin muğam şöbəsini bitirib. Bu qədim el sənətimizi dərindən öyrənmək üçün Elçin Məmmədov indi Alimlər Evində çalışan, bu muğam sənətini dərindən bilən, şagirdlərinə onu həvəslə öyrədən Sərdar Bağırovdan muğam dərsi alır. Elçin özü bu barədə belə dedi: Muğam oxumaq o qədər də asan deyil. Bu sənət aləmində muğama hər sənətkar müraciət edə bilmir. Muğamın bütün incəliklərinə sahib olmaq üçün çox çalışmaq lazımdır.

Elçin Məmmədov Gəncə şəhərində Zabitlər evində Gültəkin xanımdan çox razılıq etdi. O, Gültəkin xanımın rəhbərlik etdiyi ansamblın tərkibində konsertlərdə iştirak edir. Muğamlarımızı, təsniflərimizi, xalq mahnılarımızı özünəməxsus bir ustalıqla oxuyur. Dəfələrlə N saylı hərbi hissədə əsgərlərimiz qarşısında oxuduğu mahnılar ona alqışlar gətirmişdir. Gəncə, Şəmkir, Tovuz, Qazax zəhmətkeşləri qarşısındakı çıxışları muğam sənətinə, aşıq sənətinə olan məhəbbətini gözəl zəngulələri ilə sübut etmişdir. Bu sahədə qazandığı nailiyyətlər ona neçə-neçə diplomlarda, təltiflərdə öz əksini tapmışdır.